**Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda zal nəzarətçisi qismində iştirak etmək istəyən namizədlərin fəaliyyətinin sertifikatlaşdırılması Qaydaları**

1. Bu Qaydalar Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən keçirilən imtahanlarda zal nəzarətçisi qismində iştirak etmək istəyən namizədlərin (bundan sonra – namizəd) fəaliyyətinin sertifikatlaşdırılması qaydalarını müəyyən edir.

2. Zal nəzarətçisinin fəaliyyəti Mərkəz tərəfindən sertifikatlaşdırılır və bu haqda məlumat Mərkəzin rəsmi internet saytında və mediada verilir.

3. Zal nəzarətçisi dedikdə müvafiq imtahan üçün Mərkəz tərəfindən verilmiş zal nəzarətçisi vəsiqəsi ilə təmin olunan, imtahan zalında imtahan iştirakçılarının yerləşdirilməsinə, cavab kartlarının (vərəqlərinin) və sual kitabçalarının paylanmasına və yığılmasına görə məsuliyyət daşıyan, imtahanın vaxtında başlanmasına və yekunlaşdırılmasına cavabdeh olan, iştirakçıların imtahanda davranış qaydalarına riayət etməsinə birbaşa nəzarət edən, imtahan zalını "Zal nəzarətçisinin təlimatı"na (bundan sonra – Təlimat) uyğun qaydada idarə edən və Təlimatda göstərilən digər prosedurları icra edən və fəaliyyəti Təlimatla tənzimlənən şəxs nəzərdə tutulur.

4. Zal nəzarətçisinin fəaliyyətinin sertifikatlaşdırılması ödənişli əsaslarla həyata keçirilir. Hər bir mərhələ üzrə ödənişin məbləği aşağıdakı cədvəldə göstərildiyi kimi müəyyənləşdirilir:

| **Fəaliyyət** | **Ödəniş məbləği (AZN)** |
|---|---|
| Qeydiyyat, sənədlərin qəbulu və müsahibə; | 0,00 |
| Ümumi intellekt səviyyəsinin və situasiya mühakimə bacarıqlarının yoxlanılması üçün ilkin test imtahanı; | 20,00 |
| Təlimlər və imtahanların texnologiyası və prosedur qaydalarına dair test imtahanı | 75,00 |

5. Namizədlər aşağıdakı tələblərə cavab verməlidirlər:
- Azərbaycan Respublikasının vətəndaşı olmalı;
- ali təhsilli olmalı və ya pedaqoji profilli ixtisaslar üzrə orta ixtisas təhsilinə malik olmalı;
- tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hər hansı bir təşkilatda işləməli (**dövlət qulluğu sertifikatı olan şəxslərdən və pedaqoji profilli ixtisaslar üzrə bakalavr və ya subbakalavr peşə-ixtisas dərəcəsinə malik olanlardan iş yeri tələb olunmur**);
- yaşı 22- 45 arası olmalı;
- fiziki cəhətdən sağlam olmalı;
- məhkumluğu olmamalıdır.

6. Namizəd Mərkəzin rəsmi internet saytında **ekabinet.dim.gov.az** keçidi vasitəsilə yaratdığı "Şəxsi kabinet"i vasitəsilə aşağıda qeyd edilən sənədlər və ya məlumatlar əsasında Mərkəzə elektron qaydada müraciət edir:
- şəxsiyyət vəsiqəsi;
- iş yeri haqqında arayış (olduğu təqdirdə);
- məhkumluq barədə arayış;
- Vətən Müharibəsi iştirakçısı olduğu haqqında sənəd (olduğu təqdirdə);
- "Əməkdar müəllim" olduğu haqqında sənəd (olduğu təqdirdə).

7. Şəxsi kabinetə tələb olunan məbləğin əlavə edilməsi yolları ilə namizəd Mərkəzin rəsmi internet saytında **epayment.dim.gov.az** keçidi vasitəsilə tanış olur.

8. Sertifikatlaşdırmada iştirak namizədin fərdi elektron müraciəti əsasında həyata keçirilir.

9. Namizəd elektron müraciət etdikdən sonra təqdim olunan sənədlərin tələblərə uyğunluğu Mərkəz tərəfindən yoxlanılır və təsdiq edildikdən sonra namizəd sertifikatlaşdırmada iştirak etmək üçün qeydə alınır. Bu barədə bildiriş namizədin mobil telefonuna və elektron poçt ünvanına göndərilir. Namizəd bu Qaydaların 5-ci hissəsində müəyyən edilmiş tələblərə cavab vermədikdə və ya təqdim etdiyi sənədlərdə, məlumatlarda çatışmazlıq olduğu halda bu haqda

namizədin mobil telefonuna və elektron poçt ünvanına bildiriş göndərilir. Çatışmazlıqlar namizəd tərəfindən aradan qaldırıldıqdan sonra o, sertifikatlaşdırmada iştirak etmək üçün qeydə alınır. Qeydiyyat müddətinin sonuncu gününədək çatışmazlıqlar aradan qaldırılmadıqda, namizəd sertifikatlaşdırmada iştirak etmək üçün qeydə alınmır.

10. Müraciət təsdiq edildikdən sonra, əvvəlcədən müəyyən edilmiş müsahibə tarixləri və saatları üzrə qeydiyyatla bağlı bildiriş namizədin mobil telefonuna və elektron poçt ünvanına göndərilir. Namizəd elektron anketə daxil olaraq təklif olunan tarix və saatlar çərçivəsində özünə uyğun vaxtı seçir və bu **Qaydaların 6-cı hissəsində qeyd edilmiş sənədlərin əsllərini və müraciət zamanı təsdiqlənmiş anket formasının çap olunmuş nüsxəsini təqdim etməklə müsahibədə iştirak edir.**

11. Namizədin təhsil haqqında sənədi və dövlət qulluğu sertifikatı Mərkəz tərəfindən aparılan elektron informasiya ehtiyatları əsasında yoxlanılır.

12. Müsahibə zamanı namizədin fiziki və psixoloji cəhətdən sağlamlığı, ümumi dünyagörüşü, nitqi, emosional davamlılıq və stres vəziyyətində işləmək bacarığı yoxlanılır. Nəticə "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir. Namizədin müsahibəyə gəlməməsi onun sertifikatlaşdırma prosesində iştirakdan imtina etməsi kimi qiymətləndirilir.

13. Müsahibədən keçən namizədlər müəyyən edilmiş vaxtda ümumi intellekt səviyyəsini və situasiya mühakimə bacarıqlarını yoxlayan ilkin test imtahanı mərhələsinə dəvət edilirlər. İlkin test imtahanına qeydiyyatla bağlı bildiriş namizədin mobil telefonuna və elektron poçt ünvanına göndərilir. Namizəd bu mərhələ üçün tələb olunan məbləği şəxsi kabinetinə əlavə etdikdən sonra elektron anketinə daxil olaraq ilkin test imtahanında iştirak etmək üçün qeydiyyatdan keçir. Namizədin imtahana gəlməməsi onun sertifikatlaşdırma prosesində iştirakdan imtina etməsi kimi qiymətləndirlilir. Ödəniş geri qaytarılmır.

14. İlkin test imtahanı kompüter vasitəsi ilə həyata keçirilir. Test imtahanı iki blokdan ibarətdir. Ümumi intellekt səviyyəsini yoxlayan testlər bloku üzrə ümumi nəticəsi ən az 40% və situasiya mühakimə bacarıqlarını yoxlayan testlər bloku üzrə isə ümumi nəticəsi ən az 50% olan namizədlər növbəti mərhələyə - təlimlər mərhələsinə buraxılırlar.

15. Təlimlərə qeydiyyat elektron qaydada aparılır. Namizədin mobil telefonuna və elektron poçt ünvanına məlumat gəldikdən və növbəti mərhələlər üçün tələb olunan məbləği şəxsi kabinetinə əlavə etdikdən sonra elektron anketinə daxil olaraq birinci təlim üçün təlim vaxtını və gününü seçir. Birinci təlimdə iştirak edən namizədlərin mobil telefonuna və elektron poçt ünvanına məlumat gəldikdən sonra elektron anketinə daxil olaraq ikinci təlim üçün təlim vaxtını və gününü seçirlər.

16. Təlimlər iki ayrı günlərdə keçirilir:

**Birinci təlim günü:**

"İmtahan prosesinin psixoloji xüsusiyyətləri" təlimi aşağıdakı mövzuları əhatə edir:

- İmtahan prosesinə aid stres və təlaş,
- İmtahana cəlb olunan tərəflərin psixoloji portretləri,
- İlkin təəssüratın imtahan gedişatına təsiri,
- İmtahan prosesində ünsiyyət xüsusiyyətləri,
- İmtahana psixoloji hazırlıq.

**İkinci təlim günü:**

Təlim Mərkəz tərəfindən hazırlanan təlimçilər tərəfindən tədris planına uyğun olaraq müxtəlif mövzularda keçirilir. Mərkəzin fəaliyyət istiqamətləri, keçirilən imtahanlar, qəbul qaydaları, imtahanların təşkili və idarə edilməsi prosesi, məsul şəxslərin seçimi, təyinatı, qiymətləndirilməsi, imtahanların texnologiyası, icra prosedurları, auditoriyanın idarəedilməsi, zal nəzarətçilərinin və digər məsul şəxslərin vəzifələri və funksiyaları haqqında məlumatlar verilir. Təlim interaktiv keçirilir, tapşırıqlar qoyulur, fikir mübadiləsi aparılır. Zal nəzarətçisinin fəaliyyətinin daha çox praktiki tərəfləri göstərilir və imtahanların təşkili, gedişi və yekunu zamanı baş verə biləcək hallar və onların

həlli yolları izah edilir.

17. Bütün təlimlərdə iştirak məcburidir. Namizədin təlimlərin hər hansı birində iştirak etməməsi onun zal nəzarətçisi kimi fəaliyyətinin sertifikatlaşdırılmasından imtina etməsi kimi qəbul olunur. Ödəniş geri qaytarılmır.

18. Təlim zamanı təlimçilər namizədləri qiymətləndirir və təlimin gündəliyində qeydlər aparır, namizədlərin tədrisin interaktiv hissəsində fəal iştirakını, stres vəziyyətində və qrup şəklində işləmək bacarıqlarını qeyd edir. Namizəd zal nəzarətçisi kimi fəaliyyətlə məşğul olmaq üçün uyğun hesab edilmədiyi halda (məs: problemli, münaqişə və konflikt yaradan, həddindən artıq passiv olduqda və digər hallarda) təlimçi bu barədə xüsusi rəy verir.

19. Təlimlər yekunlaşdıqdan sonra namizədlərin imtahanların texnologiyası və prosedur qaydalarına dair test imtahanına qeydiyyatla bağlı bildiriş mobil telefonuna və elektron poçt ünvanına göndərilir. Namizəd elektron anketinə daxil olaraq yekun test imtahanı üçün qeydiyyatdan keçir. Bu imtahandan ən az 60% müsbət nəticə göstərən namizədlərin nəticəsi məqbul hesab olunur.

20. Namizədin yekun qiyməti aşağıdakı qaydada hesablanır: ilkin test imtahanının ümumi intellekt səviyyəsini yoxlayan testlər blokundan əldə etdiyi nəticənin 40%-i ilə imtahanların texnologiyası və prosedur qaydalarına dair yekun test imtahanından topladığı balın 60 %-i toplanır.Yekunda ən az 60% nəticə göstərən namizədin fəaliyyəti aşağıdakı kateqoriyalara uyğun olaraq sertifikatlaşdırılır:

    - 90% və ondan yüksək nəticə göstərdikdə - A kateqoriyası;
    - 60% və ondan yüksək, lakin 90%-dən aşağı nəticə göstərdikdə - B kateqoriyası.

    İlkin test imtahanının situasiya mühakimə bacarıqlarını yoxlayan testlər bloku üzrə əldə olunan nəticə yekun qiymətin hesablanmasında nəzərə alınmır.

21. Namizədlərə zal nəzarətçilərinin fəaliyyətinin sertifikatlaşdırılması prosesinin hər bir mərhələsində yalnız bir dəfə iştirak etmək hüququ verilir.

22. Qaydalarda nəzərdə tutulmuş tələblərə uyğun gələn Vətən Müharibəsinin iştirakçıları və "Əməkdar müəllim" fəxri adı alan müəllimlər sertifikatlaşdırma prosesinin nəzərdə tutulmuş bütün ödənişlərindən azaddırlar.

23. "Əməkdar müəllim" fəxri adı alan müəllimlər təlimlərdə iştirak etdikdən sonra A kateqoriyası üzrə zal nəzarətçisi sertifikatı əldə edirlər.

24. Namizədin nəzarətçi qismində fəaliyyətinin sertifikatlaşdırılması ona zal nəzarətçisi statusunun verilməsi hesab olunur və bu barədə zal nəzarətçilərinin bazasında qeyd aparılır.

25. Zal nəzarətçilərinin fəaliyyət nəticələrini yüksəltmək və daha səmərəli işləməyə motivasiya etmək üçün onların xidmət haqları kateqoriyalarından asılı olaraq fərqli hesablanır. A kateqoriyalı nəzarətçilərin baza xidmət haqları 1,2-yə, B kateqoriyalı nəzarətçilərin isə 1,1-ə vurulmaqla hesablanır.

26. İmtahanlara təyinat aparılan zaman imtahanların xüsusiyyətləri, ixtisas, yaş və digər tələblər gözlənilməklə zal nəzarətçisi fəaliyyəti sertifikatlaşdırılmış nəzarətçilərə üstünlük verilir. Hər hansı bir imtahan üçün tələb olunan zal nəzarətçilərinin sayı zal nəzarətçisi kimi fəaliyyəti sertifikatlaşdırılmış nəzarətçilərin sayından az olduqda təsadüfi qaydada seçim aparılaraq təyinat aparılır.

27. İmtahanlarda yol verdikləri ciddi qayda pozuntularına görə sertifikatına xitam verilən şəxslərin bu prosesdə bir daha iştirak etmələrinə icazə verilmir.

28. İmtahan zamanı Təlimat qaydalarını pozan nəzarətçilərə müqavilədə nəzərdə tutulmuş xidmət haqları ödənilmir.

29. Zal nəzarətçisi sertifikatlaşdırılmasından keçən, nəzarətçi kimi fəaliyyəti yüksək qiymətləndirilən,

müvafiq qaydalarla tənzimlənən tələb və meyarlara uyğun olan namizədlər imtahan rəhbəri təyin edilirlər.

30. Namizədlərə zal nəzarətçilərinin fəaliyyətinin sertifikatlaşdırılması prosesinin bütün mərhələlərində aşağıdakı hərəkətləri etmək qadağandır:

- saxta və ya başqasına aid sənəd təqdim etmək, öz yerinə başqasını göndərmək;
- etik davranış qaydalarına uyğun olmayan hərəkətlərə yol vermək;
- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyaları və tütün məmulatlarını özü ilə gətirmək;
- imtahana mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, konspekt, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;
- imtahan zamanı zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq;
- imtahanda başqasının nəticəsinə təsir etmək, o cümlədən başqasının cavablarına və ya suallarına baxmaq və ya öz cavablarına və suallarına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;
- imtahanda nəzarətçiyə və ya digər məsul şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək.

Namizəd yuxarıda göstərilən hərəkətlərə yol verdikdə o, prosesdən (imtahandan) xaric edilir və onun imtahan (bütün mərhələlər üzrə) nəticələri ləğv edilir.